владения языком и знанием слов. В настоящее время наблюдается растущая тенденция уделять особое внимание высокочастотным и академическим словам в английском языке для тех, кто желает продолжить свое обучение в академической среде. С целью повышения эффективности обучения академических учащихся нами было создано и проанализировано множество корпусов, основанных на различных дисциплинах. В результате составлены различные виды списков слов на основе их частотности. Списки слов важны в обучении языку по целому ряду причин: они включают лексемы или лексические обороты, встречающихся в дискурсивной области, часто предоставляя информацию о частоте использования конкретных слов.

**THE ROLE OF VOCABULARY TESTS IN THE DEVELOPMENT OF COURSE PROGRAMS IN TEACHING ENGLISH AS A FOREIGN LANGUAGE**

***Haciyeva Konul Xanlar***

***Summary***

Vocabulary seems to have become an important component of language learning and in the recent years, a number of studies have established a close relationship between overall linguistic proficiency and word knowledge. In the light of these developments, there is now an increasing tendency to focus on high-frequency and academic words in English language for those wishing to continue their studies in an academic environment. A variety of corpora based on different disciplines have been established and analysed in order to improve the learning efficiency of academic learners. As a result, different kinds of word lists were set up on the basis of word frequency. Word lists are important in language teaching for a variety of reasons; they include lists of the words or lexical phrases found in a discourse domain, often including frequency information about the use of particular words.

***Rəyçi: A D U-nun Xarici Dillərin Tədrisi Metodikası kaf. müdiri, dosent, Şirəliyeva Günay Xəzail qızı***
***ADU-nun Təlimdə İnnovasiyalar kafedrasının 15 noyabr 2022-ci il tarixli iclasın 3 nömrəli protokolu***
***Daxil olduğu tarix 30 noyabr 2022-ci il***

**UOT:37.**

# QLOBALLAŞMA, İNFORMASİYA CƏMİYYƏTİ VƏ TƏHSİL

***F.ü.f.d., dosent Səlimov Mahir Məhəmmədəli oğlu***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialı***
***mahir.selimov0707@mail.ru***

**Xülasə:** *Məqalədə təhsil sistemində mövcud olan problemlərin həllinin bir çox hallarda ölkədə, konkret olaraq təhsil sistemində siyasətdə və ideologiyada həyata keçirilən islahatlardan asılı olduğu qeyd edilir.*

*Həmçinin, müəllif, qeyd edir ki, inteqrasiyalaşan cəmiyyətdə təhsilin modernləşməsinin yeni modelinin qurulması ancaq müasir informasiya texnologiyalarının geniş formada tətbiq edilməsindən asılıdır. Məhz sonuncu qloballaşdırmanı səciyyələndirən əsas elementdir.*

**Açar sözlər:** qloballaşma, informasiya cəmiyyəti, təhsil, təhsilin modernləşməsi, neoliberal yanaşma

**Key words:** globalization, information society, education, educational modernization, neo-liberalization approach

**Ключевые слова:** глобализация, информационное общество, образования, модернизация образования, неолиберилизационный подход

Müasir dövrdə qlobballşmanı xarakterizə edən liberalizmin əsas istiqaməti, ictimai əlaqələri təyin edəcək səviyyədə olan suveren xüsusiyyətə çevrilmişdir. Əlbəttə ki, neo-liberalizmin bu şəkildə təyinatı, təhsilin məzmununa təsir edən struktur dəyişiklikiləri haqqında təsəvvür yaradır.

Buna görə də təhsil aşağıdakı ümumi çərçivədə: dövlət təhsil prosesini müvafiq qaydada tənzimləməsi cəhdlərinə baxmayaraq, bu sahədə qazanılan biliklər hələ də əmək bazarının tələblərinə cavab vermir. Bu baxımdan Azərbaycanda bir çox istiqamətlər üzrə həyata keçirilən təlim-tədris sistemi ölkənin müəyyən peşə və ixtisaslar üzrə mütəğəssislərə olan tələbatını ödəmir və bu sahədə böyük radikal islahatlara ehtiyac var. Həyata keçirilən bu islahatların səmərəliliyini aparmaq üçün müəyyən bir mexanizmin yaradılmasına ehtiyac vardır. Bu isə təhsilin əmək bazarı ilə əlaqələndirilməsini, qeyri-dövlət strukturu da daxil olmaqla cəmiyyətin peşə-ixtisas həyatı ilə uzlaşdırılmasını tələb edir.

Əgər bir zamanlar dünyanın ən qabaqcıl universitetləri Avropa qitəsində idisə, amma indi onların əksəriyyəti ABŞ-dadırlar (Harvard universiteti, Massaçusets Texnologiya Unviersiteti, Stanford, Yel universitetləri və digər özəl universitetlər). Avropa universitetlərindən fərqli olaraq ABŞ universitetləri təhsilini üç əsas komponent üzərində qurur: - tədris, tədqiqat, cəmiyyətə xidmət. Əgər bu üçüncü komponenti təhsil sisteminə gətirirsənsə, artıq təhsilin istiqaməti və təbiəti tamamilə dəyişir. Əgər bu üçüncü komponent yoxdursa, onda bütün elmlər yaxşıdı, bütün elmləri öyrənmək lazımdır. Əksinə, əgər bu üçüncü komponent təhsildə yer alarsa, onda artıq tədris olunan bilik sahələrini seçməyə məcbursan – belə ki, bəzi biliklərə cəmiyyətin tələbatı daha çoxdur, bəziləri isə ikinci dərəcəli xarakterə malik ola bilər. Belə olan halda, ölkənin təhsil müəssisələri dövlət üçün strateji əhəmiyyət daşıyan sahələri və bilikləri tədris etmək zərurəti qarşısında qalır.

Son dövrlərdə Dünya Bankı mütəxəssislərinin təhsilin sisteminin özünün yeni sərmayə sisteminə çevrilməsi istiqamətindəki fikirlərini müasir dövrdə təhsilin əmtəələşməsinə yönəldirlər. Qloballaşma müddətində həyatın hər sahəsinə nüfuz edən liberal baxışlar şübhəsiz təhsilə böyük təsir edirlər [1].

Bundan əlavə bazar istiqamətli təhsil sistemi, şagirdə məktəbin ona çəkdiyi xərclərin ödənilməsi şərtilə təhsil ala bilməsini ehtiva edir. Bir şirkət işə bir işçi götürərkən qəzetlərə elan verdiyi kimi universitetlər də eyni yolla elan verirlər. İş yerinin təhsil etikası baxımından bu ölçüyə gəlməsi neo-liberal təhsil sisteminin mövcudluq şərtidir.

Bununla əlaqədar təhsilin özəl xarakter alması, fərqli bir müstəvidə, fərqli mülkiyyət əlaqələriylə formalaşdığını ehtiva edir.

Qloballaşma dövründə təhsilə ayrılan büdcə vəsaitlərinin dünya ölkələrində tədricən azalması müşahidə olunur. Təhsilin maliyyə tələbləri ödənilə bilmədiyindən tələbələr informasiya cəmiyyətinin verdiyi imkanlardan istifadə edərək aldıqları təhsil xidmətlərinin qarşılığını bir müştəri kimi ödəmək məcburiyyətindədirlər. Bu baxımdan tələbələr öz qazancları hesabına təhsil xərclərini ödədikləri səbəindən öz sərmayələrinin idarəedilməsində müstəqillik əldə etmiş olurlar. Xüsusilə, ölkəmiz də daxil olmaqla dünyada yeni, xüsusi mülkiyyətli təhsil qurumlarının təcrubəsinə əsasən öz təhsil xərclərini ödəyən tələbələr daha yaxşı şərtlərlə əmək bazarına daxil ola bilirlər. Beləliklə, bir çox hallarda konservativ idarəetmə meyarlarını əsas götürən dövlət təhsil müəssisələrində kütləvi təhsillə birlikdə keyfiyyət də getdikcə düşməkdə və tələbələrin təhsildəki funksiyası yalnız hazırlanmış proqramlar çərçivəsində verilən məlumatı almaqdan ibarətdir.

Bundan başqa, inkişaf etməkdə olan ölkəmiz kimi başqa ölkələrdə nəzərə çarpan digər bir problem də təhsil sisteminin işsizliyə alternativ olduğunu gənclərə təlqin edilməsidir.

Burada informasiya cəmiyyəti ilə neo-liberal qloballaşmanın təhsildəki ziddiyyəti özünü qabarıq formada göstərir. Digər tərəfdən qloballaşmanın təşkilati strukturunu formalaşdıran BVF və Dünya Bankı kimi qurumların, təkid etdiyi iqtisadi platformaların bir çox ölkələrdə işsizliyə və yoxsulluğa gətirib çıxarmaları azmış kimi "qlobal rəqabət üçün səriştəli işçi qüvvəsi yetişdirin" şəklindəki ifadələri, neo-liberalizmin başqa bir ziddiyyətidir [2].

IMF, Dünya Bankı kimi suveren güclər qloballaşmanın təşkilati strukturundan faydalanırlar. Bu mənada neo-liberal baxışların təhsil sahəsinə daşınması və yayılmasında əlbəttə ki, beynəlxalq qurumlar və Avropa Birliyi kimi regional təşkilatların əhəmiyyətli rolu olmuşdur. Bu səbəbdən təhsilin xüsusiləşdirilməsinə, sektorlaşmasına və liberallaşdırılmasına istiqamətlənən siyasətə bu təşkilatlar tərəfindən böyük qaynaqlar transfer edilir. Buna görə də təhsil, neo-liberal görüşlər baxımından digər əmtəələrdən heç bir fərqi olmayan əmtəə kimi qəbul edilir. Bu "bir çox neo-liberallara görə hər sahədə olduğu kimi, təhsildə də rəqabətqabiliyyətli bazar münasibətlərinin yaradılması qaçılmazdır və təhsil artıq xüsusi bir əmtəə istehsalçısı kimi hazırladığı mütəxəssislər əmək bazarında alınıb-satıla biləcək bir əmtəə növü kimi qəbul edilməlidir" [3].

Son vaxtlarda əmək bazarında iştirak edən işaxtaranların bir və ya bir neçə xarici dil bilməsi tələbləri ilə qarşılaşması problemi bu baxımdan diqqəti çəkir. Qloballaşma ilə birlikdə ingilis dilli akademik ədəbiyyatların dominant (hakim) mövqeyi bu problemi bir daha aktuallaşdırır. İngilis dilinin bilik-informasiya sisteminin əsas dil kontenti kimi çıxış etməsi və beynəlxalq informasiya-bilik sistemi ilə əlaqələndirmə vasitəsi olaraq geniş istifadəsi onun dominantlıq statusunu getdikcə artırır, tədris proqramlarının, kirukulumların istifadəçilərinin başa düşdükləri səviyyədə hazırlanmasını zəruri edir.

Qeyd etmək lazımdır ki, universitetlərin əsas missiyası olan təhsil fəaliyyətinə araşdırma fəaliyyətinin də getdikcə daha çox əlavə olunması universitetləri mənsub olduqları cəmiyyətin gələcəyinə daha məsuliyyətlə yanaşmalarını ehtiva edir. Bu universitetlərin təşəbbüskarlıq missiyasını daha da artıraraq onu dünya innovasiya sisteminin fəal oyunçusuna çevirir. Bu baxımdan, Azərbaycan universitetləri texnoloji inkişaf, fənlərarası müştərək fəaliyyət, təhsil və araşdırma imkanları ilə qlobal rəqabət müstəvisində Azərbaycanı dünyaya təqdim etməlidir. Bu missiya XXI əsrdə universitetlərin üzərinə düşür. Yeni texnologiyaların təsiri nəticəsində universitetlər öz ənənəvi forma və məzmun təməllərini dəyişirlər: tədrisdə məkan anlayışı aradan qalxır. Məsələn, ABŞ-ın Miçiqan Universitetinin professoru Duderstadın "asinxron learning" deyə adlandırdığı yeni üsul insanın istədiyi yerdə istədiyi zaman təhsilə və ya müvafiq biliklərə yiyələnmələrinə geniş imkanlar yaradır. Bu istiqamətdə şəffaf və distant təhsil verən universitetlər milyonlarla tələbəsi olan auditoriyaya sahib olurlar. Artıq ömürboyu oxumaq prinsipi həyatımızın bir parçasına çevrilib. Bunun nəticəsində universitetlər kurikulumlarını və elmi sifarişlərini tədris proqramlarının daha elastik olmasını şərtləndirən və təhsildə təcrübi yanaşmalara önəm verməsinə şəraiti zəruri edən cəmiyyətin tələbləri üzərində qura bilərlər.

Əvvəllər hər hansı bir problem müəyyən bir nöqtədən qaynaqlanırdı. İndi isə electron-rəqəmsal qaynaqlar dövrü olduğundan problemlərin də çoxsaylı mənbəələri diqqəti cəlb edir. Bu hal təhsildə ənənəvi pedaqogikanın əvəzinə kollabrativ (əməkdaşlıq) tədrisi, insan üçün bilik fenomenini və universitetin onlar üçün yaratdığı sosial faydanı önə çıxardı. Gələcəyin universiteti fənlərarası iş birliyinə əsaslanan təşəbbüskar hədəfləri ilə yaranmış problemləri həll etməklə yeni yollar və variantlar ortaya qoymuşdur. Fənlərarası fərqlərin aradan qalxması və universitetlər arasında qlobal miqyasda cərəyan edən rəqabət Azərbaycan ali təhsil

şəbəkəsinin təhsil və elmi-tədqiqat məsələlərinə yenidən nəzər yetirməyə səfərbər edilməlidir. Universitetlərin təhsil, elmi-tədqiqat və innovasiya üçbucağı kimi təsnif edilməsi Azərbaycanda yeni universitet düşüncəsini həm öz ənənəvi prinsipinə çevirməli, həm də universitet - istehsalat əməkdaşlığının yeni istiqamətlərini inkişaf etdirməlidir. Universitetlərin istehsalat və ya işəgötürənlər mühiti ilə əməkdaşlığının tarixi XVII əsrin ortalarına gedib çıxır. XVII əsrin əvvəllərində F.Bekon “history of trades” proqramını hazırlayaraq sənaye məhsullarının necə istehsal olunduğunun təsnifatını və metodologiyasını vermişdir. Bekon hesab edirdi ki, elmi düşüncə istehsalçıların baxış bucağı ilə genişlənəcəkdir. Bekonun bü mülahizələri İngiltərədə universitet-istehsalat əməkdaşlığının əsasını qoyaraq “Royal Society of London” şirkəti timsalında sənaye inqilabına zəmin hazırladı [3, 823–833]. Eləcə də Birləşmiş Ştatların Arizona Əyalət Universiteti fənlərarası təhsil paradiqmasını elm-təhsil müstəvisinə çıxararaq universitetin səmərəlilik göstəricisini son 50 ildə ən yüksək nöqtəsinə qaldıra bilmişdi.

Elmi biliyin təşkilinin yeni formalarının axtarışı təhsil sisteminin islahatının ən mühüm məqsədidir. Hazırda maarifçilik konsepsiyasının normativizminə və unitarizminə zidd olan yeni elm obrazı təşəkkül tapmaqdadır. Bununla yanaşı savadalma ideyasına da yanaşmalar dəyişir. Ənənəvi təsəvvürlərlə yanaşı bu gün pedoqogikada insan və savadlılıq barədə yeni təsəvvürlər təşəkkül tapır, pedoqogikanın antropoloji əsaslarının əvəzlənməsi baş verir. Təhsilli insan bu gün “bilikli adamdan”, hətta dünyagörüşü formalaşmış adamdan daha çox, həyata hazır olan, müasir mədəniyyətin mürəkkəb problemlərindən baş açan, həyatda öz yerini başa düşməyə qabil olan insandır.

Təhsil- azad şəxsiyyətin formalaşması, başqalarını başa düşmək, təfəkkürün, ünsiyyətin, nəhayət, insanın praktik hərəkəti və davranışları üçün şərait yaratmalıdır. Elə etmək lazımdır ki, təhsilli insan qarşılaşdığı sınaqlara hazır olsun.

Hazırda “bilikli insan” obrazına qarşı bəzən “şəxsiyyət” qoyulur və qeyd olunur ki, təhsilin əsas məqsədi yaradıcı şəxsiyyət yetişdirməkdir. Həqiqətən də, bilikli insan başqa sözlə, mütəxəssisdir-insanın bir hissəsidir, amma həm də şəxsiyyətdir-həm də mühüm hissəsidir, onun başqa hissələri də var-bədəni (bədən varlığı), psixikası (psixi varlıq), ruh (ruhi varlıq), sosial fərd (nəsli varlıq) və s. Təhsil insanın inkişafı üçün şərait yaratmalıdır, hər tərəfli insan haqqında hələ kifayət dərəcədə bilmədiyimiz insanın inkişafı üçün şərait yaratmalıdır [2, s.86].

Müasir dövrün insanlar qarşısında qoyduğu bir neçə şərtlərə nəzər salsaq, mədəniyyətin humanitar və texniki sahələrə parçalanması prosesini aradan qaldırılması üçün müəyyən cəhdləri görərik. Belə ki, bu iki sahə son dövrlərdə bir-birindən daha çox uzaqlaşırlar və ona görə iki müxtəlif -humanitar və texniki bəşəriyyət formalaşması baş vermişdir (alimlər, mühəndislər, ümumiyyətlə, rasional texniki yönümlü adamlar). Ehtimal var ki, əgər texniki və humanitar mədəniyyətlərin fərqliliyi artarsa, bəşər sivilizasiyasına təhlükə varsa, onda bütün bəşəriyyət özünü onların yaxınlaşması üçün səfərbər etməli, humanitar-texniki tamlığa səy göstərməlidir. Təbii-elmi dünyagörüşü, demək olar ki, hər iki insandan birinə müasir mədəniyyət və təhsillə təlqin edilsə də, hələ də humanitar dünyagörüşünün kifayətsizliyi hiss olunur. Çünki bu başqa pedoqoji paradiqmaya - təhsilin, məktəbin, insanın yeni kontekstdə dərk edilməsinə gətirib çıxarmalıdır.

Ali təhsilin islahatında başlıca istiqamətlərdən biri təhsili sistemini dövlətin inhisarından kənarlaşdırmaqdır. Əgər bu olmazsa, təhsildəki çatışmazlıqlardan, gənclər mənimsədiklərinin reallığa uyğun gəlməməsi kimi qeyri-mütənasiblik vəziyyətindən azad etmək mümkün olmayacaq.

Təhsil müəssisəsinin sərbəstliliyinyin olmaması bir tərəfdən müəllimlərin, ali məktəb rəhbərlərinin düşüncələrində formalaşməş xüssusiyyətlərin nəticəsidir. Onlar rəhbərlikdə "yuxarıların" standartları, proqramları və planlarına əməl etməyə öyrəşiblər. Təhsilin məzmunu ilə bağlı məsələləri öhdələrinə götürmək məsuliyyətindən qorxurlar və yuxarıların təlimatlarını gözləyirlər. Təhsilin islahatı ilə bağlı söhbətlərdə ali məktəblərin müstəqilliyi, tədris proqramlarının, çoxpilləli təlimin müxtəlifliyi ideyaları özünə çətin yol açır. Təhsilin maliyyələşdirilməsinin yeni mənbələrinin meydana gəlməsi ilə bu işdə irəliləyişlərin olmasını düşünmək olar. Biz hansı proqramlara ehtiyacın olması, hansı universitetlərin rəqabətqabiliyyətli səviyyədə olmalarını aşkar edə bilərikr.

Bu cür mərkəzləşmənin olmaması ilə eyni zamanda bu və ya digər təlimə, onun keyfiyyətinə obyektiv qiymət vermək olar. Çox zaman mütəxəsisslər bazar islahatları şəraitində fundamental sosial və humanitar təhsilə marağın itməsi təhlükəsindən danışırlar. Ancaq Avropa ölkələrində aparılan təcrübə bunun belə olmadığını göstərir. Araşdırmalar tələbələrdə yüksək səviyyəli mütəxəssis olmaq üçün ixtisas fənləri ilə yanaşı proqramlarda ümumi iqtisadi nəzəriyyə, fəlsəfə,Ş fəlsəfə tarixi, etika, politologiya, sosiologiya, dinşünaslıq və s. kimi fənlərin həcminin azalmasının və ya tamamilə götürülməsinin, məntiqin əsasları kimi fənlər hesabına sıxışdırılmasının əleyhinə olduqlarını bildirirlər. Zaman özü yuxarıda sadalanan fənlərin hazırlanan mütəxəssislərin vətəndaş kimi formalaşmasında əhəmiyyətli rol oynamasına zəruri şəraitin yaradılmasını tələb edir.

**Nəticə və Təkliflər.**

Nəticə olaraq onu deyə bilərik ki, bizim gündəlik qarşılaşdığımız məhsullar, xidmətlər kompleksi daha çox disiplinlərarası sferanın aktivindədir.Gələcəkdə bu paradiqma daha çox izləniləcək.Bu da universitet şəbəkəsində disiplinlərarası tədris, araşdırma və inkişaf trendlərinin əhəmiyyətini daha da artıracaq. Azərbaycan ali təhsil şəbəkəsində bu yanaşmalar həm elmi metodoloji, həm də novasiyaların yeni invariantları kimi düşünülməli və universitet kurikulumlarının nüvəsini təşkil etməlidir.Araşdırmanın innovasiyaya çevrilməsi universitetdə yaradılan akademik infrastrukturların keyfiyyərcə yeni axtarışlara cəlb etməlidir. Bununla da, ali təhsilin qlobal meyllərini milli inkişaf səmtindən qiymətləndirərək universitetlərin cəmiyyət quruculuğunda yeni rolunu müəyyən etmək gələcək hədəflərin fəth olunmasında mühüm başlanğıcdır.

Müasir dövr inkişaf prosesində qarşımıza çıxan yeni anlayışlar çağdaş dövrümüzün fəlsəfəsidir. Qloballaşma faktı, iqtisadiyyatın öndə olmasını, siyasətdə, mədəniyyət və incəsənətdə, təhsildə və cəmiyyətin digər sahələrində keyfiyyətcə yeni dəyişikliklərə gətirib çıxarır.

Qloballaşma ilə birlikdə ictimai sahədə əsaslı bir paradiqma dəyişikliyi formalaşmır. Nəticədə istehsal şərtləri məzmunca dəyişir, cəmiyyətin müxtəlif sahələrində öz əksini taparaq yeni bir yanaşma modeli yaratmışdır. "Texnologiya" və "informasiya " əsasında formalaşan bu cəmiyyət informasiya cəmiyyəti kimi təsvir olunur. Bu yanaşmada istər cəmiyyətin spesifik xüsusiyyətləri və söykəndiyi qaynaqlar (məlumat, texnologiya, bəşəri sərmayə vs.) istərsə də, inkişaf edən yeni sektorun məşğulluq keyfiyyətinin bir zərurət olaraq "təhsil"i hər zamankından daha çox ön plana çıxır. Ümumiyyətlə, təhsildə inkişafın, gənclərin sosial problemlərinin bir həll variantı olaraq bu məsələlər diqqət mərkəzində olmalıdır.

Son dövrlər ölkəmizdə elektron hökumətin formalaşması kontekstində informasiya cəmiyyətinin üzvlərinin özlərini keyfiyyətli təhsil əsaslı bir müstəvidə inkişaf etdirməyə çalışmalıdırlar. Qloballaşma zamanı informasiya cəmiyyətinin standartlarını mənimsəmək istəyən ölkələr, dövrün ehtiyaclarına cavab verə bilən, araşdırma və inkişaf rulu şəxsiyyətə

sahib fərdlər yetişdirməlidir. Bu səbəbdən də ictimai inkişafın əsası olan təhsilin vəzifəsi yalnız cəmiyyətə formal-diplomlu işçi hazırlamaqla məhdudlaşdırılmamalıdır.

Nəticə etibarilə, bütün bu inkişafı səciyyələndirən müstəvidə, müasir texniki təchizatlı, məlumat-təhli-axtarış keyfiyyətlərinə malik istifdəçı profilinin yaradılması zəruridir. Bu tələblərə cavab verə biləcək mütəxəssislərin yetişdirilməsi təhsilin ən fundamental missiyası olmalıdır.

### *Ədəbiyyat*


1.Б. Д. Грядущее постиндустриальное общество. Опыт социального прогнозиро вания. M.Academia,1999, 956 с.

2. 9.Joseph Stiglitz. Globalization and Its Discontents, W.W.. Norton & Company, June 2002,p 282.

3. Всемирный доклад по мониторингу ОДВ. Образование для всех к 2015 году. Добьемся ли мы успеха. Франса, изд.UNESCO,2008, 492 с.


## GLOBALIZATION, INFORMATION SOCIETY AND EDUCATION

***Salimov Mahir Mammadali***


***Summary***

The article notes that the fundamental importance of solving educational problems to a great extent on the ideology and specific policies in the educational system, implemented in the country.

At the same time, the author emphasizes that the needs and the kind of consensus that will be decisive in the creation of a new model of educational modernization in an integrated society built on the basis of modern information technology. That last is a defining component of the process of globalization.


## ГЛОБАЛИЗАЦИЯ, ИНФОРМАЦИОННОЕ ОБЩЕСТВО И ОБРАЗОВАНИЯ

***Салимов Махир Магамедали оглы***


***Резюме***

В статье отмечается, что принципиальной важностью решения образовательных проблем в значительной степени зависят от идеологиия и конкретной политики в образовательной системе, проводимая в стране.

В то же время, автор подчеркивает, что необходим и некий консенсус в отношении того, что будет определяющим в создании новой модели образовательной модернизации в интегрированном обществе, построенном на основе современных информационных технологий. Именно последние являются определяющим компонентом процесса глобализации.



***Rəyçi: prof.M.Hüseynov***

***ADPİ-nun Ağcəbədi filialının İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası kafedrasının 12 sentyabr 2022-ci il tarixli iclasın 01 saylı protokolu***

***Daxil olma tarixi 28 sentyabr 2022-ci il***